Assessment of external economic factors affecting economic development in the South Caucasus

Abdulla Jasim Ashamsi
Doctoral student, Azerbaijan State University of Economics. Azerbaijan.
Email: xxalshamsixx@hotmail.com
https://orcid.org/0000-0003-4698-4095

Abstract. The article examines foreign economic factors affecting the economic development of the South Caucasus countries. The most favorable position in the Caucasus in terms of territory belongs to the South Caucasus. It is necessary to properly assess the economic potential of this region, the geoeconomic realities that increase its importance and affect the system of international economic relations. In recent years, it is clear that international organizations and the world's economic powers attach great importance to the region. It is further noted that the South Caucasus and Central Asia have led to sustainable development and security from the Mediterranean to China, as well as sustainable development and the export of Caspian oil and gas with the participation of world-renowned companies to the European market. Foreign trade and the export potential of the region play an important role in the economic development of the South Caucasus and in its influence on international economic development. Therefore, by prioritizing international markets, it is important to increase the competitiveness of sectors of the economy and its subsectors, which may be integrated into the international economy, to increase the efficiency of factors of production, especially human capital, and to give preference to effective foreign economic policy.
Key words: South Caucasus, Azerbaijan, Georgia, Armenia, import, export, economic development, factors, GDP.

http://dx.doi.org/10.29228/edu.324
JEL F15, F63**; UDC** 339.5:339.924
To cite this article: Ashamsi A.J. (2021). Assessment of external economic factors affecting economic development in the South Caucasus. *Economic Growth and Social Welfare*, Issue I, pp. 32-44.
Article history: Received – 05.01.2021; Accepted – 18.03.2021

Cənubi Qafqaz ölkələrində iqtisadi inkişafa təsir edən xarici iqtisadi amillərin qiymətləndirilməsi

Abdulla Casim Aşamsi
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant.
E-mail: xxalshamsixx@hotmail.com
https://orcid.org/0000-0003-4698-4095

Annotasiya. Məqalədə Cənubi Qafqaz ölkələrinin iqtisadi inkişafına təsir edən xarici iqtisadi amillər araşdırılır. Qafqazda ərazi-məkan baxımından ən əlverişli mövqe Cənubi Qafqaza məxsusdur. Bu regionunun iqtisadi potensialını, onun əhəmiyyətini artıran, beynəlxalq iqtisadi əlaqələr sisteminə təsir göstərən geoiqtisadi reallıqları düzgün qiymətləndirmək lazımdır. Son illərdə beynəlxalq təşkilatların və dünyanın iqtisadi güclərinin bu regiona böyük önəm verdiyi daha aydın görünür. Cənubi Qafqaz Aralıq dənizindən Çinədək davamlı inkişafın və təhlükəsizliyin təmin olunmasına, dayanıqlı inkişafa və Xəzər nefti və qazının dünyanın nüfuzlu şirkətlərinin iştirakı ilə Avropa bazarına çıxarılmasına səbəb olmuşdur. Xarici ticarət, regionun ixrac potensialı Cənubi Qafqaz regionunun iqtisadi inkişafında və regionun beynəlxalq iqtisadi inkişafa təsirində böyük rol oynayır. Buna görə də beynəlxalq bazarların prioritetlərini dəqiqləşdirməklə iqtisadiyyatın beynəlxalq iqtisadiyyata inteqrasiya oluna bilən sahələrinin və onun yarımsahələrinin rəqabətqabiliyyətinin artması, istehsal amillərinin, xüsusən insan kapitalının səmərəliliyinin yüksəlməsi, region dövlətlərinin səmərəli xarici iqtisadi siyasət yeridilməsinə üstünlük verməsi mühüm əhəmiyyət kəsb edir.
Açar sözlər: Cənubi Qafqaz, Azərbaycan, Gürcüstan, Ermənistan, idxal, ixrac, iqtisadi inkişaf, amillər, ÜDM.

http://dx.doi.org/10.29228/edu.324
JEL F15, F63**; UDC** 339.5:339.924
Məqaləyə istinad: Aşamsi A.C. (2021). Cənubi Qafqaz ölkələrində iqtisadi inkişafa təsir edən xarici iqtisadi amillərin qiymətləndirilməsi. *İqtisadi Artım və İctimai Rifah*, № 1, səh. 32-44.
Məqalə tarixçəsi: göndərilib – 05.01.2021; qəbul edilib – 18.03.2021

Giriş /İntroduction

Cənubi Qafqazı əhatə edən bir çox yaxın ölkələrlə yanaşı, uzaq xarici ölkələrin nüfuzlu araşdırma mərkəzləri də Cənubi Qafqazın təbiətindən, iqtisadi potensialından istifadədə maraqlı olan güclü qonşu dövlətlərin hər birinin potensial strateji xəttini az və ya çox dərəcədə aydınlaşdırmışdır. Belə ki, ABŞ-ın Harvard Universitetinin Xəzər və Xəzərətrafı ölkələrin iqtisadiyyatının araşdırılması proqramının məlumatlarında qeyd olunur ki, Cənubi Qafqazda yerləşən hər üç ölkənin hər birinin "Xarici" qonşusu olan ölkə ilə anlaşılmaz münasibətləri vardır. Həm Rusiya

və Türkiyə, həm də ABŞ üçün Gürcüstan və Azərbaycan geostrateji koordinatlar nöqteyi-nəzərdən diqqət çəkən dövlətlərdir. Nəzərə alsaq ki, Azərbaycan neft-qaz istehsalçısı kimi Qərb regionu üçün geostrateji nöqteyi-nəzərdən qiymətlidirsə, Gürcüstan həmin halda neft və qazın nəqli ilə əlaqədar tranzit ölkəyə və ərazi məkanına görə çox qiymətlidir.

Diqqəti cəlb edən qəribə reallıq odur ki, bütün dünyada olduğu kimi, Cənubi Qafqazda da çox qiymətli və strateji əhəmiyyətli ərazilərdə seperatçılıq dalğaları daxili və xarici amillərin təsiri ilə tez-tez güclənir, gözlənilməz acı nəticələrini verir. Təsadüfi deyildir ki, Azərbaycan ərazisi kimi Gürcüstan ərazisi də həmin acı nəticələrdən əziyyət çəkir.

Cənubi Qafqazın üç ölkəsindən yalnız ikisi, yəni Azərbaycan və Gürcüstan özünün çox qiymətli məkan-əraziyə, geostrateji əhəmiyyətə malik region olduğuna görə həm daxili və həm də xarici iqtisadi amillərin təsirinə məruz qalır. Cənubi Qafqaz regionunun iqtisadiyyatında və onun iqtisadi inkişafının öyrənilməsində onları formalaşdıran daxili və xarici iqtisadi amillərin müəyyən edilməsi, daha həlledici amilləri ayıraraq onların tədqiq edilməsi əsas yeri tutur. Hər halda regionun iqtisadi inkişaf amilləri çoxsaylı olduğundan, onların sırasından iqtisadi inkişafa birbaşa təsir edən amilləri, xüsusən regionda istehsalın real həcminin artmasına, onun strukturunun yaxşılaşdırılmasına, səmərəliliyinin və faydalılığının yüksəldilməsinə təsir edənləri tədqiq etmək lazım gəlir. Bu amillər regional iqtisadi inkişafın dinamikasını və səviyyəsini müəyyən edir, istehsalın real həcminin zəngin miqyasda artmasına birbaşa təsir göstərir, onun faydalılığının artırılmasında mühüm rol oynayır.

Metodologiya

Məqalədə əsasən sistemləşdirmə üsulundan istifadə edilmişdir. Məlumdur ki, iqtisadi inkişafa təsir edən xarici iqtisadi faktorlar kimi idxal və ixrac əməliyyatları ön plana çıxır. Bu baxımdan hər iki əməliyyat üzrə yanaşmada sistemlilik tələb olunur ki, nəticədə onların iqtisadi inkişafa təsirini dəqiq müəyyən etmək olsun. Həmçinin məqalədə qruplaşdırma və qrafik üsullardan da istifadə edilmişdir. Tədqiqatın informasiya bazasını yerli və xarici ədəbiyyatlar, Azərbaycan Statistika Komitəsinin məlumatlarından təşkil edir.

Əsas hissə /Main part

Ədəbiyyatların təhlili

Dünyanın ayrı-ayrı regionlarının iqtisadi inkişafına və onların beynəlxalq iqtisadi inkişafa təsirinin öyrənilməsinə dair bir çox alimlərin tədqiqatlarına rast gəlmək olar. Onlar nəinki ayrı-ayrı ölkələrin, eyni zamanda regional iqtisadiyyatın strukturlaşma prinsiplərinin, iqtisadiyyatın açıqlığı və demoqrafik və ekoloji amillərin qruplaşdırılaraq öyrənilməsinə diqqət vermişlər.

Son illərdə bir sıra tədqiqatçı alimlər – Rüstəmbəyov (2015), Sabanadze (2002),Benashvili və Asanidze (2016), Khokhobaia (2015), Jansiz və Khojaste (2015) və digərləri Cənubi Qafqazın iqtisadi potensialının öyrənilməsi, bu regionun ayrı-ayrı ölkələrinin xarici iqtisadi əlaqələrinin mövcud vəziyyətinin qiymətləndirilməsinə həsr olunmuş əsərlər yazmışlar. Onlar əsasən Cənubi Qafqazın təbii sərvətlərinin beynəlxalq iqtisadi dövriyyəyə cəlb olunmasının əhəmiyyətinə və bu istiqamətdə beynəlxalq nəqliyyat dəhlizlərinin roluna və daha çox isə xarici investorların regiona maraqlarının durmadan artmasının səbəblərinin və nəticələrinin öyrənilməsinə diqqət yetirmişlər.

Ümumiyyətlə, dünyanın diqqətini özünə cəlb edən bir region kimi Cənubi Qafqaz regionunun iqtisadi inkişafına təsir edən daxili və xarici amilləri nəinki funksional əlamətlərinə görə, daha çox isə sahə və sektorial əlamətlərinə görə də qruplaşdırmaqla öyrənmək lazımdır.

Nəticə və müzakirələr

Qiymətləndirmənin metodoloji əsasları

Müasir dövrün iqtisadçıları dünyanın regionları üzrə iqtisadi inkişaf amillərinin tədqiqinə metodoloji yanaşmanın üsullarından demək olar ki, oxşar səviyyələrdə istifadə etsələr də, hər halda onların yekun elmi və təcrübi nəticələrinin biri digərindən fərqlənmişdir. Fərqli nəticə belədir ki, regional iqtisadi inkişaf amilləri iqtisadi və qeyri-iqtisadi, birbaşa və dolayı, intensiv və ekstensiv,

idarə olunan və idarə olunmayan proseslər kimi ayrı-ayrılıqda öyrənildiyindən, həmin proseslərə vahid bir sistemin tərkib hissələri kimi baxılmasına ehtiyac vardır. Ümumi yanaşma ilə fərqli nəticələrin əldə olunmasına dair iqtisadçı alimlərin baxışlarını aşağıda təsvir edilən şəkildəki kimi göstərmək olar (bax: şəkil 1.).

	Amillərin başlıca qrupları	Hər bir başlıca qrupun yarım amilləri
1.	Təbii obyektiv amillər	a) Geoloji ehtiyatlar: regionun ərazisində olan və proqnozlaşdırılan bütün növ təbii ehtiyatlar b) Sənaye ehtiyatları: regionun ərazisində bəlli olan, hasil olunması nəzərdə tutulan təbii ehtiyatlar c) Coğrafi mövqe: regionun okeana çıxış imkanları, ticarət mərkəzlərinə yaxınlıq
2.	İqtisadi amillər	a) İnvestisiya yatırımlarının imkanları: Kapitalların region ölkələrinin sahələri üzrə yerləşməsi b) İnvestisiya cəlbediciliyi c) İnsan kapitalı d) İnnovasiya potensialı: regionun ölkələrində elmi mərkəzlərin və alimlərin sayı, sifariş olunmuş elmi kəşflər
3.	İnstitutsional amillər	a) regionun ayrı-ayrı ölkələrində iqtisadi islahatların keçirilməsi surətinə və qanunların dəyişməsi tezliyi b) region ölkələrində demokratik institutların mövcudluğu, vətəndaş cəmiyyətinin formalaşması, mülkiyyətin qorunma səviyyəsi

Şəkil 1. Cənubi Qafqaz regionunun iqtisadi inkişaf amillərinin qruplaşdırılması.
Qeyd: müəllif tərəfindən tərtib edilmişdir.

Konkretlik baxımından nəzərə alınmalıdır ki, Cənubi Qafqaz regionun iqtisadi inkişafına amillər qrupunun təsirində təbii və iqtisadi amillərin qruplaşdırılmasına daha çox önəm verilməlidir. Çünki Cənubi Qafqazda digər regionların nəinki sahə əlamətlərinə, daha çox isə funksional əlamətlərə görə əlaqələnməsi diqqəti daha çox cəlb edir (bax: şəkil 1). Qeyd edilən qruplaşdırma ilə amillərin təsir imkanlarının öyrənilməsi dünyanın bütün regionlarının, o cümlədən də Cənubi Qafqaz regionunun iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Bu mənada Cənubi Qafqaz regionunun iqtisadi inkişaf amillərini dəqiqləşdirməklə, onları şəkil 2-dəki kimi qruplaşdırmaq olar.

Cənubi Qafqaz regionunun iqtisadi inkişafının əsas amillərinin şəkil 2-də göstərilən cəhətlərə görə qruplaşdırılması konseptual yanaşma kimi görünsə də, hər halda iqtisadi reallığı göstərə bilir. Regionun iqtisadi inkişafında və bütünlükdə bu inkişafın beynəlxalq iqtisadi inkişafa təsirində həlledici rol oynayan həmin amillərin daha konkret əlamətlərinə görə də qruplaşdırılaraq təsnifatının aparılması diqqəti daha çox cəlb edir. Bu istiqamətdə struktur və şaxələnmə prosesləri ön sıraya çıxır və bu proseslərin bütünlükdə region və ayrılıqda isə regionun ayrı-ayrı ölkələri üzrə necə getməsi qiymətləndirilməlidir.

Cənubi Qafqazın iqtisadiyyatında struktur dəyişikliyinin və şaxələnmənin sürətli olması və yaxud ləngiməsini, ən ümumi halda region üzrə, xüsusi halda isə regionun ayrı-ayrı ölkələri üzrə istehsalın ixtisaslaşmasını onun dinamikliyi səviyyəsində görmək olar. Bunlar hər halda regionda ümumi daxili məhsulun (ÜDM) real həcminin artmasına birbaşa təsir göstərir, ixtisaslaşmış konkret istehsal sahələrinin səmərəliliyinin yüksəlməsində mühüm rol oynayır.

Qiymətləndirmə prosesində Cənubi Qafqaz iqtisadiyyatında regional inkişaf üçün daha xarakterik olan istehsal, bazar, bölgü, demoqrafik və s. bu kimi amilləri ön sıraya çıxdığından, həmin amillərin təsiri ilə formalaşan iqtisadi göstəricilərin hesablanaraq nəticə çıxarılması düzgün olardı. Regionun iqtisadi inkişafının istehsalla bağlı amilləri, əsasən, istehsalın fiziki həcmi ilə,

yəni onun mövcud vəziyyəti ilə əlaqələnsə də, regionun bazarla bağlı amilləri daha çox təklif, tələb, rəqabət, qiymət, keyfiyyət kimi amillərlə əlaqələnir. Nəzərə almalıyıq ki, Cənubi Qafqaz regionunun istehsalla bağlı amilləri qrupuna iqtisadiyyatda inhisarlaşma dərəcəsi, istehsal resursları ilə təminat, vergitutma, kreditləşmə kimi amillər də daxil ola bilər (bax: şəkil 2).

Şəkil 2-də göstərilən 1-ci qrup amillər regionda istehsalın genişlənməsini və maddi əsasını təşkil etsə də, ikinci qrup amillər isə istehsalın necə nəticələnməsini, onun son məqsədini və səmərəliliyini göstərir. Bu mənada 1-ci qrup amillər regionda iqtisadiyyatın perspektiv artım imkanlarını göstərdiyi halda, ikinci qrup amillər region üzrə ÜDM-in real həcminin qısamüddətli dinamikasını göstərir və eyni zamanda bazarın təsiri altına düşür. Qeyd edilən hər iki amil qrupu Cənubi Qafqazda öz həllini tapan iqtisadi siyasətin başlıca istiqamətlərini ifadə etməklə, davamlı iqtisadi inkişafı təmin etməyə imkan verir. Bu mənada regionda istehsal potensialının artırılmasını üçün regionun malik olduğu təbii resurslardan səmərəli istifadə edilməsi diqqəti daha çox cəlb edir. Nəzərə alınmalıdır ki, regionun təbii və iqtisadi resurslarından tam və səmərəli istifadə edildiyi halda, sözsüz ki, region üzrə ÜDM-in real həcmi özünün maksimum həddinə çata bilər ki, bununla ÜDM-in istehsalı üçün lazım olan amillərin potensial həcminə nail olmaq olar.

Amillər qrupu	Əlamətləri
İstehsal amilləri	1. Təbii resursların həcmi və tərkibi 2. İqtisadi resursların həcmi və strukturu 3. Əsas kapital: Maşın avadanlıq, bina və qurğulardan ibarət fiziki kapitalın mövcudluğu 4. İstehsalda texnologiya, ETT-nin səviyyəsi 5. İstehsal amillərinin qiyməti 6. Kredit almaq imkanı
Bazar amili	1. İxracın genişlənməsi, tələb, təklif, investisiya, qiymət, rəqabət
Bölgü amili	1. İstehsal resurslarının regionun ölkələri arasında bölgüsü
Digər amillər	1. Regionda milli etnik, mənəvi mühit, siyasi vəziyyət

Şəkil 2. Funksional əlamətlər üzrə Cənubi Qafqaz regionunun iqtisadi inkişaf amillərinin qruplaşdırılması
Qeyd: qruplaşdırma müəllif tərəfindən hazırlanmışdır.

Cənubi Qafqaz regionunun iqtisadi inkişafının başlıca amillərinin ümumi cəhətlərə görə qruplaşdırılması, hər halda, şərti xarakter daşıyır. Lakin bir çox tədqiqatlarda Cənubi Qafqazın nəinki ayrı-ayrı ölkələrinin, habelə bütünlükdə regionun iqtisadi inkişaf amillərinin təsnifatı daxili (endogen) və xarici (ekzogen) amillər üzrə aparılır (Todaro, 1997, s.94,95).

Ümumiyyətlə, Cənubi Qafqaz regionu üzrə də daxili və xarici amillər qarşılıqlı əlaqədə olmaqla iqtisadi inkişafa güclü təsir imkanına malik olurlar. Regional iqtisadi inkişaf və bu inkişafın beynəlxalq iqtisadi inkişafa təsirini artırmaq üçün müasir qloballaşma proseslərinin dərinləşməsi və genişlənməsinin regionun daxili inkişaf amillərinə transformasiyasına əsas yaranmaqdadır. Nəzərə alınmalıdır ki, xarici iqtisadi inkişaf amillərinin mövcudluğu fəal olmuş olsun. Bu halı bir qədər ətraflı təhlil etmək üçün Cənubi Qafqazın iqtisadi inkişafını göstərilən ardıcıllıqla qruplaşdırmaq olar (bax: şəkil 3).

Şəkil 3-dən göründüyü kimi, Cənubi Qafqaz regionunun iqtisadi inkişafına təsir edən əsas amillər sırasında təbii və iqtisadi resurslar, xarici investisiyalar və ticarət xüsusi yer tutur. Dünyanın istənilən regionunda həm təbii və iqtisadi resurslarda, həm də elmi-texniki və sosial-iqtisadi sahələrdə baş verən dəyişikliklər və yeniliklər region üçün vacib olan sahələrin və infrastrukturların iqtisadi inkişafının əsas təminatçısıdır. Eyni zamanda regionun və regionu təmsil edən ölkələrin iqtisadiyyatında səmərəliliyin yüksəlməsi, infrastrukturun inkişafı, iqtisadi fəaliyyətdə liberallaşma, aparılan iqtisadi islahatların səviyyəsi, rəqəmsal texnologiyalardan istifadə və s. bu kimi iqtisadi inkişafın daxili amilləri xüsusi rol oynayır.

Daxili (endogen) amillər	Xarici (ekzogen) amillər
1. Təbii resurslar 2. İqtisadi resurslar 3. Sosial-iqtisadi şərait 4. İnfrastrukturun inkişaf səviyyəsi 5. Elmi-texniki yeniliklərin tətbiqi nəzəriyyəsi 6. İnnovasiya məhsullarının buraxılışı nəzəriyyəsi 7. İqtisadi islahatların həyata keçirilməsi səviyyəsi	1. Xarici investisiyalardan istifadə səviyyəsi 2. Beynəlxalq ticarət 3. İmmiqrasiya və emiqrasiya 4. Xarici borc və transferlər 5. Beynəlxalq turizm 6. Qloballaşma 7. İqtisadi liberallaşma 8. İnteqrasiya 9. Sərbəst dönərli xarici valyutalar

Şəkil 3. Regionun iqtisadi inkişaf amilləri.
Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.

Şəkil 3-dəki göstəricilərin müqayisəli təhlili göstərir ki, Cənubi Qafqazın iqtisadi inkişafının daxili amilləri sırasında təbii resursların mövcudluğu xüsusi rola malikdir. *Əvvəla*, regionun təbii resursları hər hansı bir ərazidən və bu ərazidə yerləşən ölkələrin iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, dünyanın zəif iqtisadiyyatlı ölkəsini də investisiya yatırımı üçün cəlbedici edir. *İkinci,* təbii resurslar regionun iqtisadi inkişafı üçün başlıca maliyyə mənbəyi rolunu oynayır. Bu mənbə hesabına müasir beynəlxalq inkişaf üçün həlledici istiqamət sayılan iqtisadi resursların artırılması, xüsusən insan kapitalının yaradılması ilə regionun iqtisadi potensialının zənginləşdirilməsi baş verir. Çünki insan kapitalı nəinki regiona daxil olan ayrı-ayrı ölkələrin və habelə bütünlükdə regionun iqtisadi sərvətinin yaradılmasının əsasını təşkil etməklə, bütünlükdə, beynəlxalq iqtisadi inkişafa öz təsirini göstərə bilir.

Qiymətləndirmədə önə çıxan əsas amillərin təhlili

Son illərdə Dünya Bankının apardığı araşdırmalar göstərmişdir ki, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə iqtisadi sərvətin nəinki yaradılması, habelə onun artırılmasının əsas mənbəyi insan kapitalıdır. Onların hesablamalarına görə, Qərbi Avropanın sənaye ölkələrində iqtisadi sərvətin yaradılmasında əsas fondlar 23%, təbii resurslar 2%, insan kapitalı isə 74% təşkil edir. Bu göstəricilər ABŞ iqtisadiyyatında daha güclü olmaqla, müvafiq olaraq 19,0%, 5,0% və 76,0% təşkil edir (Mayburov, 2004, s.3). Bu da bir həqiqətdir ki, insan kapitalı yalnız təhsillə, təhsilə yatırılan xərclərlə bağlı olaraq formalaşa bilir. Təsadüfi deyil ki, sənaye ölkələrində inkişaf reallığı təsdiq edir ki, təhsilə qoyulan 1dollar xərc növbəti illərdə 6d ollara yaxın gəlir gətirir, hətta 1 il əlavə təhsil istehsalın həcmini 5-6% artıra bilir.

Qeyd edilən inkişaf meyli Cənubi Qafqaz ölkələri üçün xarakterik olmasa da, hər halda gələcəkdə regionun sürətli inkişafı üçün insan kapitalının formalaşmasına dövlət və özəl sektorlar tərəfindən ayrılan vəsaitlərin məbləği artırılmalıdır. Bu istiqamət region ölkələri üzrə əmək məhsuldarlığının tədrici artımına, bununla da ümumi daxili məhsulun (ÜDM) həcminin kəmiyyət və keyfiyyətcə çoxalmasına, habelə adambaşına düşən ÜDM-in artımına gətirib çıxara bilər.

Müasir dövr, bütünlükdə dünyada olduğu kimi, dünyanın hər bir regionunda qloballaşma proseslərinin genişlənməsi, regionlararası istehsal-təsərrüfat əlaqələrinin güclənməsi nəticəsində dünya ölkələrində iqtisadi inkişafın ekzogen (xarici) amillərini ön sıraya çıxarır və həmin amilləri daha çox fəallaşdırır. Bu mənada Cənubi Qafqazın iqtisadi inkişafına və bu inkişafın beynəlxalq iqtisadi inkişafa təsirinin qiymətləndirilməsində xarici iqtisadi amillərin roluna və əhəmiyyətinə diqqəti artırmaq lazımdır. Belə qiymətləndirmənin reallığı üçün xarici iqtisadi amilləri daha konkret istiqamətlərdə qruplaşdırmağa ehtiyac yaranır ki, bu da aşağıdakı ardıcıllıqla qruplaşdır-

manın aparılmasını zəruri edir.

– ümumdünya-beynəlxalq inkişaf meylləri: buraya qlobal proseslər, inteqrasiyanın ilkin şərtləri və tələbləri, postsənayeləşmə erasının zərurilikləri və s. daxildir;

– təbii amillər: təbii resursların tükənməsi, təbii fəlakətlər, təbiətin çirklənməsi, texnogen təhlükə, kosmik proseslər və s. bu kimi amillər daxildir;

– iqtisadi amillər: dünya bazarında istehsal amillərinin konyukturası, dünya bazar qiymətlərinin vəziyyəti, beynəlxalq nəqliyyat-kommunikasıya sistemlərinin mövcudluğu, transmilli korporasiyaların fəaliyyəti, dünyanın digər regionlarının iqtisadi inkişafındakı dəyişikliklər və s. daxildir;

– sosial amillər: dünya əhalisinin beynəlxalq hərəkəti, dünya gəlirlərinin qeyri-bərabər bölünməsi, demoqrafik gərginliklər və s. daxildir.

Dünyanın digər regionlarında olduğu kimi, Cənubi Qafqaz regionunda da iqtisadi inkişaf ölkələr arasında istehsal-təsərrüfat əlaqələrinin genişlənməsi, regional və daha çox beynəlxalq iqtisadi inteqrasiya proseslərinin sürətlənməsi ilə əlaqədar ekzogen (xarici) amilləri ön sıraya çıxarır. Bu hal dünya iqtisadiyyatının qloballaşması ilə bağlı olsa da, hər halda, beynəlxalq ticarətin liberallaşmasının sürətlənməsi də öz təsirini göstərir.

Nəzərə almalıyıq ki, dünyanın hər hansı bir regionunu əhatə edən maliyyə-iqtisadi böhranı digər regionlarla yanaşı, Cənubi Qafqaz regionuna da öz təsirini göstərə bilir. Bu mənada fikrimizcə, xarici amillərə diqqəti artıraraq beynəlxalq iqtisadi inkişafın ümumi prinsipləri müntəzəm öyrənilməli, xarici iqtisadi amillər sistemli tədqiq edilməlidir. Fikrimizcə, ilk növbədə, Cənubi Qafqaz dövlətlərində beynəlxalq investisiya fəaliyyətinə, beynəlxalq əmək bölgüsünün dərinləşməsi prosesinə, dünya ixracı və idxalına, beynəlxalq borc probleminə, beynəlxalq rəqabətqabiliyyətlilik prinsiplərinə, beynəlxalq biznes fəaliyyətinə diqqəti artırmaq lazımdır.

Beynəlxalq iqtisadi əlaqələr, o cümlədən beynəlxalq ticarətə xüsusi önəm verən regionlarda olduğu kimi, Cənubi Qafqazın iqtisadiyyatını qiymətləndirərkən bir çox hallarda son illərin iqtisadi ədəbiyyatlarında "ixraca meyillilik", "ixracyönümlü istehsal" anlayışlarından tez-tez istifadə edilir. Bu istiqamətdə "Milli iqtisadiyyat", "Milli istehsal" prosesləri məsələləri təkrar-təkrar qaldırılır və müasir dövrün tələbləri baxımından öz həllini gözləyir. Bir çox iqtisadçılar istər regional miqyasda, istərsə də regiona daxil olan hər hansı bir ölkə miqyasında formalaşan daxili iqtisadiyyat (milli iqtisadiyyat baxımından) prosesinə milli təsərrüfatların elə fəaliyyəti kimi baxırlar ki, həmin təsərrüfatlar yerli (milli) sahibkarların kapitalı ilə mallar və xidmətlər istehsal edir, xarici bazarlarla birbaşa əlaqələnə bilir və əsasən ixracyönümlü istehsalla məşğul olur (Kərimli və Süleymanov, 2001, s.33; Əhmədov, 2006, s.70; Rustambekov, 2008). Belə istehsalı həyata keçirən ölkə müəssisələri xarici ölkələrdə aktivlər yarada bilir, orada biznes quraraq öz ölkələrinə valyuta gətirmə imkanlarını artırırlar.

Cənubi Qafqaz iqtisadiyyatının çoxillik təcrübəsindən görmək olar ki, regionun xarici iqtisadi əlaqələri sistemində iqtisadi inkişafa və bununla da beynəlxalq iqtisadi inkişafa təsir edən əsas amillərdən biri də mallar və xidmətlərlə ixrac və idxaldır. Son illərin iqtisadi araşdırmalarına görə, Cənubi Qafqaz regionu XX əsrin 90-cı illərindən başlayaraq, yəni Cənubi Qafqazın hər üç ölkəsi keçmiş Sovetlər birliyindən ayrılaraq müstəqil iqtisadi inkişaf yoluna qədəm qoyduqdan sonra regionun xarici ticarəti ilə iqtisadi inkişafı arasında birbaşa əlaqə daha da güclənmiş və bu əlaqəni sübut edən real faktlar və empirik araşdırmalar çoxalmışdır. Çünki dünya təcrübəsində dünyanın elə regionları olmuşdur ki, müəyyən zaman kəsiyində milli istehsalını ixrac yönümlü etməklə dünya bazarlarında və bununla da beynəlxalq ticarətdə əsaslı mövqe tutmuşlar. Məsələn, Sinqapur, Cənubi Koreya, Malayziya, Honq-Konq və s. kimi ölkələri əhatə edən Cənub-Şərqi Asiya regionunun təcrübəsini öyrənməklə real faktlara və Cənubi Qafqazın yerli xüsusiyyətlərinə əsaslanmaqla təcrübi (empirik) araşdırmalar aparmaq lazımdır.

Qiymətləndirmə üçün bütünlükdə Cənubi Qafqazın, ayrılıqda isə regionun hər bir ölkəsinin ixracı ilə ÜDM arasında empirik əlaqənin olmasını və ixracın iqtisadi inkişafın başlıca hərəkətverici qüvvəsi olması fikirlərini əsaslandırmaq lazımdır. Məsələn, fransız iqtisadçısı Mişel Michaely regionlar üzrə iqtisadi inkişafla ixrac arasında birbaşa əlaqənin müqayisəli təhlilinə əsaslanaraq

belə bir nəticə əldə etmişdir ki, bu və ya digər regionda adambaşına düşən milli gəlirlə ixrac arasında birbaşa əlaqə olsa da, hər halda, həmin əlaqənin səviyyəsi müxtəlif regionlarda müxtəlifdir. Belə bir nəticə əhalinin hər nəfərinə düşən milli gəlir çoxaldıqca, ixracın artımı ilə iqtisadi inkişaf arasında əlaqənin daha da güclənməsinə (Michaely, 2007) dair irəli sürülmüş daha konkret fikirlə öz qiymətini almışdır.

Belə araşdırmaları davam etdirən bir çox xarici iqtisadçı alimlər daha geniş ölkələr qrupunu tədqiq etməklə maraqlı nəticələr əldə etmiş və qiymətləndirmələr etmişlər. Belə ki, ingilis iqtisadçıları Janq və Marşal birgə apardıqları araşdırmalarda diqqəti cəlb edən belə bir nəticəyə gəlmişlər ki, ixracın iqtisadi inkişafa təsiri ilə yanaşı iqtisadi inkişafın ixracın genişlənməsinə əks təsiri də baş verir. Belə ki, iqtisadi inkişafın nəticəsi kimi artan istehsal həcmi daxili tələbatdan çox olduğuna görə, istehsal edilmiş malların xarici ölkələrdə satılması üçün xaricə göndərilməsi zəruri olmuşdur (Jung and Marshall, 2005).

Dünyanın bir çox regionlarında ixracın artımının iqtisadi inkişafa təsirinin müsbət nəticələr verməsinə dair qeyd edilən nəticələr və qiymətləndirmələrlə yanaşı, Cənubi Qafqaz regionunun da iqtisadi inkişafına onun ixracının təsiri qiymətləndirilməlidir. Bu mənada Cənubi Qafqazın iqtisadi inkişafının statistik təhlili göstərir ki, regionun ÜDM-nin artımının başlıca səbəbi mallar və xidmətlərin beynəlxalq ticarəti, beynəlxalq investisiyaların yatırılmasıdır. Cənubi Qafqazın iqtisadiyyatının beynəlxalq ticarətin inkişafına təsiri XXI əsrin əvvəllərindən sürətlənməyə başlamış və hazırda artım sürəti öz davamlılığını saxlamaqdadır.

Lakin Cənubi Qafqaz regionuna daxil olan hər üç respublikanın iqtisadiyyatına fikir verdikdə aydın olur ki, yaxın keçmişdə həmin region və ölkələr SSRİ-nin tərkibində olduqda bütünlükdə region, ayrılıqda isə hər bir ölkə müstəqil xarici ticarət əlaqələrinə girə bilməsələr də, hər halda ittifaq daxilində onların hər birinin idxalının və ixracının xüsusi çəkisini aydınlaşdırmaq olurdu. Həmin dövr rəqəmlərinə fikir verdikdə aydın olur ki, Cənubi Qafqaz respublikaları sırasında Azərbaycan nəinki özünün ixrac potensialına, eyni zamanda ixracın həcminə və xüsusi çəkisinə görə də Gürcüstan və Ermənistana nisbətən daha böyük paya malik olmuşdur. Hətta keçmiş ittifaq büdcəsinə ayırmalara görə də Azərbaycan iqtisadiyyatının payı olduqca böyük məbləğ təşkil edirdi.

Cənubi Qafqaz regionunda Azərbaycanın iqtisadi potensialının qiymətləndirilməsi

İqtisadi müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Cənubi Qafqazda özünün iqtisadi inkişaf səviyyəsinə görə öz mövqeyini daha da gücləndirir və özünün liderliyini qoruyub saxlamaqdadır (bax cədvəl 1)

Cədvəl 1. Cənubi Qafqaz regionuna daxil olan ölkələrin ÜDM-ləri (mlrd ABŞ dolları ilə)

Ölkələr	**2005**	**2010**	**2015**	**2016**	**2017**	**2018**	**2019**
Azərbaycan	13,2	52,9	53,0	37,9	40,8	47,1	48,0
Gürcüstan	5,6	22,6	35,7	20,5	22,7	23,8	24,5
Ermənistan	4,9	9,3	10,6	10,6	11,5	12,5	13,7

Mənbə: TEC, 2020, istinad tarixi: yanvar, 2020.

Cədvəl 1-dən göründüyü kimi, Cənubi Qafqazın hər üç respublikası sırasında ÜDM-in həcminə və artımına görə Azərbaycan çox irəlidədir. Belə ki, 2005-2020-ci illər ərzində Gürcüstanla müqayisədə Azərbaycanın ÜDM-nin həcmi qeyd edilən illər üzrə 2 dəfə, Ermənistanla müqayisədə isə 3,5-4,0 dəfəyə yaxın çox olması öz əksini tapır. Nəzərə almalıyıq ki, Cənubi Qafqazın hər üç respublikasında istehsal olunan ÜDM-in hansı hissəsi beynəlxalq ticarət sferasına daxil olur. Bu mənada Cənubi Qafqazın hər bir ölkəsinin istehsal etdiyi ÜDM-in hansı hissəsini dünyanın hansı regionlarına ixrac etməsinin qiymətləndirilməsi lazım gəlir.

Cənubi Qafqaz regionunun istər ixrac potensialına, istərsə də istehsal olunmuş ÜDM-in tərkibində ixraca yönəldilən hissəsinin ümumi həcminə və xüsusi çəkisinə görə Azərbaycan ön sırada dayanır. Düzdür, Azərbaycanın ixrac etdiyi mallar və xidmətlərin çox hissəsini neft və qaz təşkil

etsə də (ümumi ixracın 90%-ə yaxınını), hər halda, ölkədə qeyri-neft sektorunun tədricən sürətli inkişafı ilə Azərbaycan ixracının strukturunda perspektivdə ola biləcək dəyişikliyin gələcək mənzərəsini indidən görmək olar. Azərbaycanın ixrac imkanları artdıqca, ölkənin rəqabət gücü də, texnoloji inkişafı, böhtanlara qarşı dayanıqlığı, iqtisadiyyatda qeyri-neft sektorunun xeyrinə struktur dəyişikliyi də pozitiv istiqamətdə güclənir.

Bu istiqamət Azərbaycanın da daxil olduğu Cənubi Qafqazın iqtisadiyyatı üçün, onun ixrac potensialının aşkara çıxarılması üçün olduqca əhəmiyyətlidir. Dünya təcrübəsi göstərir ki, ixracı zəif olan regionlarda daxili tələbatı ödəmək də zəif olur, iqtisadi resurslardan səmərəli istifadə etmək olmur, bu isə kütləvi istehsal üçün yeni texnika və texnologiyaların cəlb edilməsinə stimul yaratmır. Bu mənada regionun iqtisadiyyatında neft-qaz sektoru ilə yanaşı qeyri-neft sektorunun daha sürətli inkişaf etdirilməsi, ilk növbədə emal sənayesinin, kənd təsərrüfatının, turizm sahələrinin ixrac potensialı çox böyükdür. Son illərin təcrübəsi göstərir ki, ərazisi kiçik olan regionlar böyük regionlarla müqayisədə daha çox xarici ticarət dövriyyəsinə malik olurlar. Eyni zamanda həmin regionların idxal və ixrac əməliyyatlarında balanslı nisbət ixracın xeyrinə müntəzəm olaraq dəyişməyə meyl edir. Bu halı Cənubi Qafqaz regionunun hər üç respublikasının statistik göstəricilərindən də görmək olar (bax: cədvəl 2).

Cədvəl 2-də verilən məlumatlardan göründüyü kimi, bütünlükdə, Cənubi Qafqaz regionu üzrə xarici ticarət dövriyyəsi və onun tərkib hissələri olan ixrac və idxalın həcmi, demək olar ki, illər üzrə artmağa doğru meyl etmişdir. Lakin artımın ayrı-ayrı illər üzrə, xüsusən 2015-ci il də daxil olmaqla əvvəlki illərlə müqayisədə enməsi özünü göstərmişdir ki, bu da 2014-cü ildə özünü daha qabarıq göstərən beynəlxalq maliyyə böhranının həm bütünlükdə regionun və həm də regionun ayrı-ayrı respublikalarının iqtisadiyyatına mənfi təsirindən baş vermiş, eyni zamanda xarici ticarətin ümumi həcmində azalmanın olmasına baxmayaraq, idxal və ixracın ayrı-ayrılıqda həcmində və strukturunda qeyri-bərabər artım olmuşdur.

Cədvəl 2. Cənubi Qafqaz regionunun üç respublikası üzrə ixrac və idxal (milyard ABŞ dolları)


Ölkələr		2014	2015	2016	2017	2018
Azərbaycan						
	İxrac	21,8	12,7	13,5	15,3	19,5
	İdxal	9,2	9,2	8,5	8,8	11,5
	Saldo	12,6	3,5	5,0	6,5	8,0
Gürcüstan						
	İxrac	2,9	2,2	2,1	2,7	3,4
	İdxal	8,6	7,3	7,3	7,9	9,1
	Saldo	-5,7	-5,1	-5,2	-5,2	-5,7
Ermənistan						
	İxrac	1,5	1,5	1,8	2,2	2,4
	İdxal	4,4	3,2	3,3	4,1	5,0
	Saldo	-2,9	-1,7	-1,5	-1,9	-2,6

Mənbə: ASG, 2019; AXT, 2020, istinad tarixi: yanvar, 2020.

Cədvəl 2-dəki göstəricilərin müqayisəsi göstərir ki, region ölkələri arasında Azərbaycan ön sırada dayanır. Belə ki, Cənubi Qafqazda bütünlükdə xarici ticarət dövriyyəsi və ayrılıqda isə, ixrac və idxal üzrə müsbət irəliləyişin bütün cəhətləri Azərbaycan iqtisadiyyatı ilə, onun xarici iqtisadi əlaqələrinin üstünlükləri ilə bağlıdır. Təsadüfi deyil ki, xarici ticarət dövriyyəsi böyük həcmdə olan Azərbaycan Cənubi Qafqazın lider ölkəsi hesab olunur və bütünlükdə Cənubi Qafqazın beynəlxalq iqtisadi inkişafa təsirində müstəsna əhəmiyyət kəsb edir. Bu halı Cənubi Qafqazın hər üç respublikasının nəinki xarici ticarət dövriyyəsinin ümumi həcminin artımından, eyni zamanda

ixracatın ümumi həcminin artımından da görmək olar. Belə ki, yalnız 2005-2015-ci illəri əhatə edən 10 il ərzində Azərbaycanın ixracı 3,5 dəfə artdığı halda, Gürcüstanda bu göstərici 2,0 dəfə, Ermənistanda isə 1,0 dəfə artmışdır.


Son illər Gürcüstanda da siyasi vəziyyət stabildir, seçkilər nisbətən dinc şəraitdə keçirilir. Düzdür, həmin dövrdə Qafqazın digər ölkəsi olan Ermənistanda siyasi və iqtisadi vəziyyətin çətinləşməsi ölkədəki sosial vəziyyətə də birmənalı şəkildə neqativ təsir edib. Gürcüstan kiçik açıq iqtisadiyyatı olduğundan, onun inkişafı əhəmiyyətli dərəcədə xarici sərmayələr, ticarət, turizm, xarici maliyyə daxilolmaları və yardımdan asılıdır. Qlobal iqtisadi rəqabətlilik indeksində Gürcüstan 184 ölkə arasında 16-cı yer tutur. Bu o deməkdir ki, Gürcüstanın iqtisadiyyatı digər ölkələrin iqtisadiyyatında daş verən proseslərə qarşı çox həssasdır. 2013-2017-ci illərdə Gürcüstanın iqtisadiyyatının orta illik artımı azalsa da, hər halda 2016-cı ildə Gürcüstan iqtisadiyyatı 2,2% artıb. 2013-cü ildə iqtisadi artım tempinin zəifləməsi, əsasən, hökumətin dəyişməsi və yeni hökumətin hansı yolu seçməsi ilə bağlı qeyri-müəyyənliklə əlaqədar olub. Bu halı Rusiya, Türkiyə də daxil olmaqla Cənubi Qafqazın digər 3 ölkəsinin timsalında verilən qrafik təsvirdən görmək olar (bax qrafik).



Qrafik 1. Cənubi Qafqaz və qonşu ölkələrdə iqtisadi artım (%-lə).
Mənbə: TEC, 2020, istinad tarixi: yanvar, 2020.

2017-ci ildən dünya bazarında neftin qiymətinin kəskin düşməsi və ABŞ-ın federal bankının dolların faiz stavkasını (dərəcəsini) gözlənilmədən aşağı salması Cənubi Qafqaz regionunun hər üç ölkəsinin milli valyutasının dəyərinin kəskin aşağı düşməsinə gətirib çıxardı, idxal və xaricdən valyuta köçürmələri azaldı və beləliklə, hər üç ölkənin milli valyutaları sürətlə ucuzlaşdı. Ölkələrin iqtisadiyyatında yaranan həmin hal inflyasiya göstəricilərini artırmaqla istehlak mallarının və xidmətlərin qiymətlərinin artmasına səbəb oldu.

Cənubi Qafqaz ölkələrində 2013-2017-ci illərdə milli valyutalarının dəyərinin aşağı düşməsi özlüyündə nominal gəlirləri də dolların dəyəri ilə müqayisədə azaltdı. Bu halı az və ya çox dərəcədə hər üç ölkənin əhalisinin real gəlirlərinin dəyişməsindən də görmək olar Bunu aşağıdakı diaqramlarda göstərilən göstəricilərdən görmək olar (bax: diaqram 1)



Diaqram 1. Cənubi Qafqaz və qonşu ölkələrdə milli valyutanın dəyərinin dəyişməsi
Mənbə: TEC, 2020, istinad tarixi: yanvar, 2020.

Əgər Cənubi Qafqazın ayrı-ayrı ölkələrinin iqtisadi göstəricilərini araşdırsaq, bəlli olar ki, hər bir ölkənin nəinki maliyyə-iqtisadi, habelə sosial-iqtisadi göstəriciləri fərqli nəticələrdə öz ifadəsini tapmışdır. Bu halı hər 3 ölkədə ABŞ dolları ifadəsində illik adambaşına düşən gəlir məbləğindəki fərqdən də görmək olar. Bu göstəricinin hesablanmasında hər bir ölkədə əhalinin ümumi sayı və ölkədə faktiki olaraq yaşayan mövcud əhalinin sayı ciddi nəzərə alınmalıdır. Məsələn, Gürcüstanda faktiki olaraq yaşayan əhalinin sayının 3,9 milyon nəfər olmasına baxmayaraq, ümumi siyahıyaalmada 4,5 milyon nəfər hesablanması adambaşına düşən gəlirlərin reallığını tam göstərə bilmir. Ermənistanda belə hesablama ilə ölkə ərazisində yaşayan faktiki əhalinin sayının daha qabarıq təhrif olunması ölkə əhalisinin hər nəfərinə düşən gəlirlərin qeyri-real hesablanmasına gətirib çıxarmışdır. Əhalisinin sayı sürətlə artaraq 10 milyonu keçmiş Azərbaycanda ölkədə adambaşına düşən gəlirin nominal məbləği də artır ki, bu da Cənubi Qafqazda regionun digər ölkələri ilə müqayisədə artımın sürətli olduğunu göstərir.

Nəticə / Conclusion

Beləliklə, yuxarıda qeyd edilən qiymətləndirmələr göstərir ki, Cənubi Qafqaz regionunun iqtisadi inkişafında və bütünlükdə isə regionun beynəlxalq iqtisadi inkişafa təsirində xarici ticarətin, xüsusən, regionun ixrac potensialının xüsusi əhəmiyyəti vardır. Bu mənada son illər Azərbaycan iqtisadiyyatında gedən proseslər, ilk növbədə, ölkə daxilində iqtisadi və sosial inkişafın təmin edilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, qeyri-neft sektoru məhsullarının, xüsusən, emal sənayesi, kənd təsərrüfatı məhsulları ixracının artırılması, turizmin genişlənməsi, bütünlükdə regionun beynəlxalq iqtisadi əlaqələrinin güclənməsinə böyük təkan verir.

Digər tərəfdən müasir dövrün qloballaşma proseslərinin Cənubi Qafqazın iqtisadiyyatının bütün sahələrinə təsir etməsi özlüyündə nəinki region dövlətləri ilə, habelə yaxın və uzaq xarici regionlarla mallar və xidmətlərlə ticarət dövriyyəsinin, onun strukturunun təkmilləşdirilməsini də tələb edir. Bu hal dünya regionları arasında dünya bazar qiymətləri, mallar və xidmətlərin satışı üzrə rəqabət qabiliyyətinin təmin olunmasını qarşıya qoyur. Nəticədə Cənubi Qafqazın iqtisadi inkişafı ilə beynəlxalq iqtisadi inkişaf arasında biri-digərindən asılı olan iqtisadi proseslərə də qiymət vermək lazım gəlir ki, bunlar da daha çox beynəlxalq iqtisadi sferaya aid olmaqla aşağıdakılardan ibarətdir:

Əvvəla, beynəlxalq iqtisadiyyata inteqrasiya oluna bilən Cənubi Qafqazın iqtisadiyyat sahələrinin və onun yarımsahələrinin mövcudluğu; ***İkinci,*** beynəlxalq bazarların prioritetlərinin dəqiqləşməsi; ***Üçüncü,*** beynəlxalq bazarlarda rəqabət və Cənubi Qafqazın iqtisadiyyat sahələrinin və yarımsahələrinin həmin bazarlarda rəqabət aparmaq qabiliyyətinin artması; ***Dördüncü,*** Cənubi

Qafqazda istehsal amillərinin xüsusən insan kapitalının səmərəliliyinin yüksəlməsi; ***Beşinci,*** region dövlətlərinin səmərəli xarici iqtisadi siyasəti yeridilməsinə üstünlük verməsi.

Yuxarıda qeyd edilənlər Cənubi Qafqaz iqtisadiyyatının beynəlxalq iqtisadi inkişafa təsirinin qiymətləndirilməsində düzgün nəticə çıxarmağa imkan verir. Cənubi Qafqaz regionunda beynəlxalq iqtisadi əlaqələr sahəsində mövcud problemlərin həll edilməsi, ilk növbədə, siyasi, sonra isə iqtisadi problemlərin aradan qaldırılması, region ölkələri arasında qarşılıqlı anlaşmanın və səmərəli birgə yaşayışın beynəlxalq hüquq çərçivəsində nizamlanmasının təmin edilməsi zəriridir.

İstifadə edilmiş ədəbiyyat / References

ASG (2019). Azərbaycanın statistik göstəriciləri 2019. Bakı.
AXT (2020). Azərbaycanın xarici ticarəti. https://www.stat.gov.az/source/trade/. İstinad tarixi: yanvar, 2020.
Benashvili G., Asanidze N. (December, 2016). Economic development of the South Caucasus East-West crossroad. *The 2016 WEI International Academic Conference Proceedings. Rome. İtaly.* pp. 34-44.
Əhmədov M. (2006). Milli iqtisadiyyat və qloballaşma. Bakı.
Jansiz A., Khojaste M. (2015). Conflicts in the Caucasus Region and Its Effects on Regional Security Approach. *Journal of Politics and Law*; Vol. 8, No. 1. doi:10.5539/jpl.v8n1p83.
Jung W. and Marshall P. (2005). Exports, Growth and Causality in Developing Countries. *Journal of Development Economics,* Vol.19. p.1-12.
Kərimli İ., Süleymanov N. (2001). Milli iqtisadiyyatın əsasları. Bakı.
Khokhobaia M., Javakhishvili I. (2015). Economic impact of tourism in South Caucasus region. *Review of Business Research.* Volume 15, Issue 2, p. 45-50. doi: 10.18374/RBR-15-2.6
Mayburov I. (2004). Effektivnost investirovaniya v chelovecheskiy kapital v SSHA i Rossii. Mirovaya ekonomika i mezhdunarodnyye otnoshcheniya. M.
Michaely M. (2007). "Export and Growth An Empiricial investigation". *Journal of Development Economics,* Vol.4. p.49-53.
Rüstəmbəyov H. (2015). Milli iqtisadi mənafelər. Bakı: Bakı Dövlət Universiteti.
Sabanadze N. (2002). International involvement in the South Caucasus. ECMI Working Paper, № 15. https://core.ac.uk/download/pdf/71730257.pdf. İstinad tarixi: yanvar, 2021.
TEC (2020). Trading Economics. https://ru.tradingeconomics.com/country-list/gdp? Continent=asia. İstinad tarixi: yanvar, 2020.
Todaro M.P. (1997). Ekonomicheskoye razvitiye: Uchebnik. / M.P. Todoro. Per. s angl., podred. S.M. Yakovleka, L.Z.Zevina. M.: YUNITI.

Оценка внешнеэкономических факторов, влияющих на экономическое развитие Южного Кавказа

Абдулла Джасим Ашамси
Докторант, Азербайджанский Государственный Экономический Университет.
E-mail: xxalshamsixx@hotmail.com

Резюме. В статье исследуются внешнеэкономические факторы, влияющие на экономическое развитие стран Южного Кавказа. Отмечается, что наиболее выгодное по территории положение на Кавказе принадлежит Южному Кавказу. Необходимо правильно оценить экономический потенциал региона Южного Кавказа, геоэкономические реалии, которые увеличивают его значение и влияют на систему международных экономических отношений.

В последние годы стало ясно, что международные организации и мировые экономические державы придают большое значение региону. Далее отмечается, что Южный Кавказ и Центральная Азия привели к устойчивому развитию и безопасности от Средиземноморья до Китая, а также к устойчивому развитию и экспорту каспийской нефти и газа с участием всемирно известных компаний на европейский рынок. Внешняя торговля и экспортный потенциал региона играют важную роль в экономическом развитии Южного Кавказа и во влиянии его на международное экономическое развитие. Следовательно, определяя приоритеты международных рынков, важно повысить конкурентоспособность секторов экономики и ее подсекторов, которые могут быть интегрированы в международную экономику, повысить эффективность факторов производства, особенно человеческого капитала, и дать предпочтение эффективной внешнеэкономической политике.

Ключевые слова: Южный Кавказ, Азербайджан, Грузия, Армения, импорт, экспорт, экономическое развитие, факторы, ВВП.